# BAKI DÖVLƏT UNİVERSİTETİ

---

2022-ci ildə Psixologiya kafedrasında elmi plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələrinin

# HESABATI

| | |
|---|---|
| **Mövzunun adı:** | **Şəxsiyyətin inkişafının və formalaşma tədqiqi məsələləri** |
| **Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** | **Səxavət Əliyeva** |
| **Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** | **01 yanvar 2022-ci il - 31 dekabr 2022-ci il** |

**B a k ı - 2022**

**Mövzu üzrə icraçılar haqqında məlumat (icraçılar, birinci mövzu rəhbər yazılmaqla):**

| S/S | Soyadı, adı, atasının adı | Təvəllüdü | Vəzifəsi | Ştat vahidi | Elmi adı və elmi dərəcəsi dərəcəsi | Ştat vahidləri üçün ikinci iş yeri, yarımştatlar üçün əsas iş yeri |
|---|---|---|---|---|---|---|
| 1. | Əliyeva Səxavət Nəsrəddin qızı | 21.12.1972 | Kafedra müdiri | 0,5 | Dosent, p.ü.f.d | BDU, Psixologiya kafedrası, dosent |
| 2. | Qədirova Rəna Həmid qızı | 26.08.1953 | Professor | 1 | Professor, p.e.d | BDU, Psixologiya kafedrası, professor |
| 3. | Şəfiyeva Elnarə İbrahim qızı | 23.05.1962 | Professor | 1 | Professor, p.e.d | BDU, Psixologiya kafedrası, professor |
| 4. | Vəliyev Mirələm Vəli oğlu | 25.10.1947 | Dosent | 1 | Dosent, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, dosent |
| 5. | Babayeva Təranə Tofiq qızı | 10.07.1963 | Dosent | 1 | Dosent, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, dosent |
| 6. | Bayramov İmdad Mustafa oğlu | 06.05.1963 | Dosent | 1 | Dosent, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, dosent |
| 7. | Səməndərova Aydan Firudin qızı | 18.10.1977 | Dosent | 1 | Dosent, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, dosent |
| 8. | Allahyarova Sevinc Ağavəli qızı | 30.09.1968 | Dosent | 1 | Dosent, ped.ü.f.d. | BDU, Psixologiya kafedrası, dosent |
| 9. | Quliyeva Sevinc Yəhya qızı | 29.04.1969 | Dosent | 1 | Dosent, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, dosent |
| 10. | Mustafayev Azər Məhəmməd oğlu | 19.05.1960 | Dosent | 1 | Dosent, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, dosent |
| 11. | Vəliyeva Yamən Əziz qızı | 15.01.1969 | Dosent | 1 | Dosent, | BDU, Psixologiya |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | p.ü.f.d. | kafedrası, dosent |
| 12. | Kazımova Kamilə Qinyaz qızı | 30.03.1968 | Baş müəllim | 1 | Baş müəllim, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, baş müəllim |
| 13. | Mirzəyeva Aida Kazım qızı | 31.04.1975 | Baş müəllim | 0,5 | Baş müəllim, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, baş müəllim |
| 14. | Vəliyeva Validə İbad qızı | 26.05.1971 | Müəllim | 0,5 | Müəllim, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, müəllim |
| 15. | Nəsirova Nigar Ruslan qızı | 16.09.1986 | Müəllim | 1 | Müəllim, p.ü.f.d. | BDU, Psixologiya kafedrası, müəllim |
| 16. | Mustafayeva Mariam Abdurəhmanovna | 14.03.1966 | Müəllim | 1 | Müəllim | BDU, Psixologiya kafedrası, müəllim |
| 17. | Sadıqov Elşən Misirxan oğlu | 19.06.1966 | Müəllim | 0,5 | Müəllim | BDU, Psixologiya kafedrası, müəllim |
| 18. | Şahinzadə Günel Oqtay qızı (analıq məzuniyyəti) | 17.10.1995 | Müəllim | 0,5 | Müəllim | BDU, Psixologiya kafedrası, müəllim |
| 19. | İgidova Emiliya Şahruddin qızı | 06.05.1981 | Müəllim | 0,5 | Müəllim | BDU, Psixologiya kafedrası, müəllim |
| 20. | Hacıyeva İlahə Dilxoş qızı | 25.02.1992 | Müəllim | 1 | Müəllim | BDU, Psixologiya kafedrası, müəllim |

| | |
|---|---|
| 1. | **Mövzu və mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər**<br>*Plan üzrə hər bir mövzunun, hər bir elmi tədqiqat işinin aktuallığı,məqsədi və alınmış elmi nəticələr ayrılıqda göstərilməli, ad soyad tam yazılmalıdır.* |
| | **Mövzunun adı:** Şəxsiyyətin inkişafının və formalaşmasının tədqiqi məsələləri<br>**Mövzunun aktuallığı və məqsədi:** Müasir dünyada insan həyatının dinamik şəkildə dəyişən reallıqları, cəmiyyətdə baş verən dərin dəyişikliklər şəxsiyyətin inkişafının psixoloji mexanizmlərinin və qanunauyğunluqlarının öyrənilməsini, onun praktik tərəfindən tədqiqini son dərəcə aktual edir. Mövzu daxilində şəxsiyyətin inkişafı və formalaşması problemi bir neçə yeni |

yanaşmalara yol açan istiqamətlərdə tədqiq edilir. İdentikliyin təşəkkülü və narrativlərin quruluşu, peşəseçmə və özünütəyinetmənin formalaşması, şəxsiyyətin psixisağlamlığı və təlim-tədris prosesində idrak fəaliyyətinin şəxsiyyətin formalaşmasında rolu kimi məsələlər tədqiqatçıların diqqət mərkəzindədir. Tədqiqatın qarşısında duran məqsəd:cəmiyyətimizin sürətlə inkişaf etdiyi dövrdəşəxsiyyətin inkişafını və formalaşmasını şərtləndirən psixoloji mexanizmlərini və xüsusiyyətlərini müəyyənləşdirmək, təklif və tövsiyələr hazırlamaqdir.

**Elmi tədqiqat işi 1.** Tələbə qruplarında gender münasibətlərinin psixoloji xüsusiyyətləri
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Dosent Səxavət Əliyeva, müəllim İlahə Hacıyeva
**Aktuallığı:** Gender münasibətləri müasir dövrümüzdə öz aktuallığı ilə ilə seçilən psixoloji məsələlərdəndir. Gender münasibətlərinin əsası ilk olaraq ailədə qoyulur. Bildiyimiz kimi ailə ilkin sosial mühitdir. Bu səbəbdən gender münasibətlərinin formalaşmasında ailənin rolu vacibdir. Gender münasibətləri uşaqların oyuncaq, geyim növlərindən tutmuş istiqamətləndiyi əlavə məşğələlərdə, evdə və məişətdə əmək bölgüsündə, hətta yeniyetməlik dövründən etibarən peşə seçimi məsələsində də özünü göstərir. Təsadüfi deyildir ki, aparılmış sorğulara əsasən peşə seçimi məsələsində qadınlara o qədər də sərbəstliyin verilmədiyi ortaya çıxmışdır. Bu məsələ rayonlarda daha qabarıq şəkildə özünü göstərir. Bu əsasdan qeyd edə bilərik ki, müasir dövrdə Psixologiya elmində Gender münasibətlərinin təzahür xüsusiyyətləri olduqca zəruri məsələdir.

Gender münasibətləri fərdin sosial inkişafına birbaşa təir göstərən amildir. Bu baxımdan onun təzahür xüsusiyyətlərinin öyrənilməsi məsələsi fərdin sosial yaşantısını müəyyən formada istiqamətləndirir.

**Məqsədi:** Müxtəlif yaş dövrlərində gender münasibətlərinin təzahür xüsusiyyətlərinin öyrənilməsi.
**Alınmış nəticələr**: Tədqiqatdan əldə edilmiş ümumi nəticələrə əsasən müxtəlif yaş dövrlərində gender münasibətlərinin təzahür xüsusiyyətləri də fərqlidir. Bu proses sosial mühitdə daha çox özünü göstərir. Ümumiyyətlə məsələyə daha dərindən nəzər saldığımız zaman görə bilərik ki, gender münasibətlərindəki bu fərqlər sosial normaların təsiri altında formalaşır.

**Elmi tədqiqat işi 2.** Şəxsiyyətin və identikliyin inkişafının narativ əsaslarının təhlili
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Professor Rəna Qədirova, Dosent Təranə Babayeva, Baş müəllim psixologiya üzrə fəlsəfə doktoru Aida Mirzəyeva
**II mərhələ:**İdentikliyin təşəkkülündə istifadə olunan əsas narativlərin tədqiqi

**Aktuallığı:** Müxtəlif xalqlar, millətlər və dinlərə tolerant münasibət azərbaycanlıların milli mentalitetinə xas olan xüsusiyyətlərdəndir. Müasir şərayitdə cəmiyyətdə gedən özünüdərk prosesi, multikultural cəmiyyətə xas olan mədəni narrativlərinin quruluşunun araşdırmasını və onlardan istifadə yollarının gostərilməsini zəruri edir.

**Məqsədi :**Mədəni identikliyin təşəkkülündə istifadə olunan əsas narativlərin quruluşunun araşdırılması.

**Alınmış nəticələr:**1.Müasir gənclərin mədəni identikliyininvə bu sahədə mədəniyyətlər arası əlaqələrin yaranması məsələlərə münasibətləırin öyrənilməsi məqsədilə xüsusi sorgu hazırlanıb.

2.2022-ci ilin mart-aprel aylarında sorgu keşirilib və nətiçələrin məlumat bazası yaradılıb (SPSS proqramı).

**Elmi tədqiqat işi 3.** Müasir dövrdə məktəbli mühitində bullinqə məruz qalanların şəxsiyyətini və psixoloji sağlamlığının tədqiqi

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Professor Elnarə Şəfiyeva, Dosent Sevinc Allahyarova, Dosent Aydan Səməndərova, Müəllim Emiliya İgidova

**II mərhələ:**Bullinq iştirakçılarının şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin müqayisəli tədqiqi

**Aktuallığı:** Son zamanlar dünyanın bütün ölkələrində təhsil müəssisələrində müşahidə olunan ən qabarıq problemlərdən biri də bullinqdir. Məktəb mühitində demək olar ki, hər bir şagird digər şagirdlərlə qarşılıqlı təsir prosesində ən azı bir dəfə bullinqin müxtəlif formaları ilə - məsxərə, qısnama, hədə-qorxu, birgə fəaliyyətdən təcrid etmə və s.- qarşılaşır. Özü də bir sıra hallarda bullinqə məruz qalan əksər şagirdlər bu haqda susmağa üstünlük verir, məktəb rəhbərliyi isə məktəbin imicini düşünərək daxildə baş verən bullinq situasiyalarını ictimailəşdirmir, bəzən isə görməzdən gəlir. Lakin yaşanılmış bullinq şagirdlərdə fəsadsız ötüşüb keçmir. İstər fiziki, istərsə də psixoloji baxımdan onlara ciddi travma vurur. Belə ki, məktəb bullinqinə məruz qalmış yeniyetmələr tez-tez baş ağrısından, yuxu pozuntusundan, mədə-bağırsaq ağrılarından, qorxulardan, pis əhvaldan, depressiya və həyəcanın müxtəlif əlamətlərindən əziyyət çəkirlər. Bullinq qurbanlarında bullinqə məruz qalmayanlarla müqayisədə depressiya səviyyəsi daha yüksək olur, suisidal fikir və cəhdlər müşahidə edilir.

Bullinqin şagirdlərin fiziki və psixi sağlamlığına ciddi ziyan vurması, hətta bəzi hallarda intihara səbəb olması bu problemin tədqiqini, bullinq iştirakçılarını səciyyələndirən psixoloji xüsusiyyətlərin ətraflı öyrənilməsini, eləcə də bu istiqamətdə səmərəli psixoloji tövsiyələrin hazırlanmasını aktual edir.

**Məqsədi :** Bullinqiştirakçılarının şəxsiyyətinin müqayisəli təhlili əsasında bullinqin onların şəxsiyyətinə və psixoloji sağlamlığına göstərdiyi neqativ təsirin tədqiqi

**Alınmış nəticələr:** Tədqiqatın bu mərhələsində məktəb bullinqinin strukturu öyrənilmiş, bu prosesin iştirakcılarını xarakterizə edən psixoloji xususiyyətlər ətraflı tədqiq edilmiş, məktəb bullinqinin profilaktikası üçün psixoloji tövsiyələr işlənil hazırlanmışdır

**Elmi tədqiqat işi 4.** Tələbə gənclərin peşə seçimi və təhsil motivasiyası

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Dosent Mirələm Vəliyev, Dosent Azər Mustafayev, Dosent İmdad Bayramov

**II mərhələ:**

**Aktuallığı:** Müasir dövrdə tələbə gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, peşə və təhsil motivasiyasının qarşılıqlı təzahürünün nəzərə alınması və öyrənilməsi aktualdır.

**Məqsədi :** Tələbə gənclərdə peşə və təhsil motivasiyasının qarşılıqlı əlaqəsinin təzahür xüsusiyyətlərini öyrənmək

**Alınmış nəticələr:** Müvafiq elmi nəticələr məqalə və tezisdə əks olunmuşdur.

**Elmi tədqiqat işi 5.**Qadın məhkumların şəxsiyyətinin psixoloji xüsusiyyətləri

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Dosent Yamən Vəliyeva

**II mərhələ:** Müxtəlif növ cinayət törətmiş məhkumların psixoloji xüsusiyyətləri

**Aktuallığı:**Qadın məhkumların şəxsiyyətinin tədqiq olunması, onun dəyərlər sisteminin və şəxsiyyətini səciyyələndirən fərdi psixoloji xüsusiyyətlərin öyrənilməsi müasir penitensiar psixologiyada öz aktuallığı ilə seçilən problemlərdəndir.

Qadınların cinayi davranışları bütün cəmiyyətə mənfi təsir göstərir, ona görə ki, bu cinayət onun əsas özəyi olan ailədə və mənəvi-psixoloji atmosferdə özünü biruzə verir. Hal-hazırda qadınların kriminal davranışının strukturunda törədilmiş ağır və xüsusilə ağır cinayətlərin sayının artması, cinayətkarların yaşının azalması kimi neqativ tendensiyalarla müşahidə olunur. Ümumiyyətlə, cinayətkarlığın strukturada qadınların nisbəti kişilərlə müqayisədə azdır. Bunun isə əsas səbəbi onların cəmiyyətdəki sosial rolları ilə izah edilir. Statistik məlumatlara görə 30-50 yaş arası qadınlar hüquq pozuntularına daha çox meyllidilər. Bununla belə məhkum qadınların orta yaş həddi kişilərdən yüksəkdir. Qadınlar da kişilər kimi eyni cinayətlərə görə cinayət məsuliyyətinə cəlb olunurlar. Eyni zamanda qadın cinayətkarların davranışında, emosional aləmində baş verən dəyişikliklər islah-əmək müəssisəsində nəzərə alınmır. Halbuki məhkumu islah etmək, onun kriminal davranışını determinə etmiş psixi keyfıyyətləri dəyişmək, onun sərvət dəyərlərində dəyişiklik yaratmaq, yenidən qurmaq, buna qədər pozulmuş sosial dəyərləri onun vicdanı sahasinə daxil etmək deməkdir. Məhz bunun üçün ilk növbədə hər bir qadın cinayətkarın şəxsi xüsiyyətlərinin psixodiaqnostikasını, onların ümumi və hüquqi sosializasiyasındakı konkret qüsurları, həm də psixi özünütənzimetmədəki qüsurları müəyyənləşdirmək tələb olunur.

**Məqsədi:** Tamahkar və Zorakı tip qadın məhkumların şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin tədqiqi

**Alınmış nəticələr:**Qadın məhkumların şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin, xarakterik cəhətlərinin, tipologiyasının, qadın cinayətkarların şəxsiyyətinin mühut və s. amillərin təsiri nəticəsində formalaşması əldə olunmuşdur.

Ümumilikdə qadın cinayətkarlığının inkişafı və son illərdə təsvir olunmuş cinayət əmƏlləri üzrə fərqli cinayətlərin baş verməsi cəmiyyəti narahat edən problemlərdən biri kimi qəbul olunur. Qadınların cinayi davranışı sosial reallığın obyektiv və subyektiv amillərinin qarşılıqlı təsirləri ilə müəyyən edilir, onların arasında aparıcı rol ictimai nizam faktoru ilə müəyyən olunur. Müasir dövrümüzdə qadın cinayətləri cəmiyyətdə baş verən tarixi, iqtisadi, hüquqi, demoqrafik və digər dəyişikliklərdən birbaşa asılı olan

sosial cəhətdən xarakterik xüsusiyyətlərə malikdir. Bu dəyişikliklər qadınların həyatının mikro-sosial atmosferində də aydın şəkildə əks olunur. Mikroiqtisadi mühitin mənfi təsiri qadınların həyatında müxtəlif tip cinayətlərin baş verməsinə səbəb olur ki,bu da həmçinin yaş, əmək fəaliyyəti, maliyyə vəziyyəti, ailə münasibətləri və s. kimi müəyyən sosial-demoqrafik amillərlə müəyyən olunur .

Qadın məhkumların şəxsiyyətinin tədqiqi zamanı əsas əlamətlər olaraq qapalılıq, tənqidə və şübhələnməyə meyillik, eyni zamanda ətrafdakı hadisələrə soyuq münasibət kimi xüsusiyyətlə müşahidə olunmuşdur. Eyni zamanda bəzi məhkumlarda liderliyə, avtorirtetə meyillik, aqressivliyə dözümsüzlük və öz məqsədinə inadla cəhd etmə də vardır.

Aparılmış tədqiqatda həmçinin nəticə olaraq ehtiyatsızlıqdan cinayət törətmiş, qəsdən adam öldürən tip qadın məhkumlardan fərqli olaraq tamahkar tip qadın məhkumlarda dəyərindən asılı olmayaraq əldə etdikləri obyektləri özündə saxlama istəyi, zamandan düzgün istifadə bacarığı, kommunikativ sferada daha aktivlik, ünsiyyətə tez girə bilmə bacarığı müşahidə edilmişdir.

**Elmi tədqiqat işi 6.** Təlimdə şəxsiyyətin inkişafına idrak fəaliyyətinin təsirinin tədqiqi

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Dosent Sevinc Quliyeva, Psixologiya üzrə fəlsəfə doktoru Validə Vəliyeva, Psixologiya üzrə fəlsəfə doktoru Nigar Nəsirova

**II mərhələ:** Təlimdə şəxsiyyətin inkişafına idrak fəaliyyətinin təsirinin tədqiqi yolları

**Aktuallığı:** İdrak proseslərin formalaşdırılması gənc nəslin tərbiyəsində mühüm rol oynayır. Məhz buna görə aparılan tədqiqatların böyük hissəsi pedaqoji psixologiya, təlim psixologiyası ilə bağlıdır. Tədris işində tələbələrin qarşısında məhz nəyi və necə yaddasaxlayaraq fikir mübadiləsi aparmaq vəzifəsinin qoyulması zəruridir.Yaddasaxlamaya təhrik edən motivlər ixtiyari yaddasaxlamada böyük rol oynayır. Çatdırılan informasiya tələbələr tərəfindən anlaşıla və öyrənilə bilər, lakin onlar üçün davamlı əhəmiyyət daşımadıqda tezliklə də unudula bilər.

**Məqsədi:**Tələbə şəxsiyyətinin inkişafınında təlimin rolunu müəyyənləşdirmək, idrak fəaliyyətini təlimə təsirini öyrənmək

**Alınmış nəticələr:** Tədqiqatın bu mərhələsində təlim fəaliyyətinin strukturu öyrənilmiş, fəaliyyətin iştirakcılarının psixoloji xususiyyətlər ətraflı tədqiq edilmiş,idrak fəallığının artırılması üçün psixoloji tövsiyələr işlənib hazırlanmışdır.

**Elmi tədqiqat işi 7.** Fərdi-psixoloji xüsusiyyətlərin tələbələrdə depressiyanın yaranmasında rolu və aradan qaldırılmasında artterapiya və pozitiv psixoterapiya metodlarından istifadə edilməsi

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** Baş müəllim Kamilə Kazımova

**II mərhələ:**

**Aktuallığı:** Müasir dövrümüzdə depressiyanın gəncləşməsi tendensiyası özünü göstərir. Tələbələrdə depressiyanın

yaranmasında isə fərdi-psixoloji xüsusiyyətlərin, o cümlədən, temperamentin də çox böyük təsiri vardır. Belə ki, melanxolik temperament tipinə malik olan tələbələrin daha çox depressiyaya məruz qalması, sanqvinik temperament tipinə malik olan tələbələrin depressiyaya az meyilli olması faktı və s. bu məsələnin nə qədər aktual olmasında özünü göstərir. Biz temperament tiplərini araşdırmaqla tələbələrin depressiyaya düşməsinin qarşısının alınmasının yol və vasitələrini tapmış olarıq ki, u da tələbələrimizin sağlam ruhda olmasına, onların sağlam şəxsiyyətlər kimi formalaşmasına, inkişafına və xalqımıza daha çox fayda verəcək gənclər yetişdirilməsinə nail olarıq.

**Məqsədi:** Məqsəd tələbələrdə depressiyanın yaranmasında fərdi psixoloji xüsusiyyətlərin rolunu araşdırmaqdır.

**Alınmış nəticələr:** Tələbələrdə fərdi psixoloji xüsusiyyətlərin depressiyanın yaranmasına təsirinin eksperimental psixoloji tədqiqi göstərdi ki, temperament tiplərinin də depressiyanın yaranmasında böyük rolu vardır. Temperament tiplərinin sinir sisteminin tipləri ilə əlaqəli olması bu məsələnin bariz nümunəsidir. Məsələn, zəif sinir sisteminə malik olan tip (melanxolik) daha çox depressiyaya meyillidir.. Öz psixoloji dünyasına qərq olan özüylə hissləriylə, fikirləri ilə məşğul olan introvertlər ünsiyyətdən qaçır , özünə qapanır ki, bu da sonda depressiyanın yaranmasına səbəb ola bilir. Lakin fleqmatik temperament tipi sinir sisteminin tipinə görə(qüvvətli- müvzinətli) depressiyaya as düşür. Bu kimi göztəricilərə əsasən qeyd edə bilərik ki,temperament tipləri(Hippokrat) və depressiya arasında müəyyən bir asılılıq vardır.

**Elmi tədqiqat işi 8.** Şüurun yüksək səviyyələrinin inkişafı inteqrasiya olunmuş şəxsiyyətin formalaşmasının amili kimi

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** Müəllim Mariam Mustafayeva

**II mərhələ:** Şəxsiyətin modelinin inteqrativ xüsusiyyətlərinin inkişafı prosesinin Robert Diltsin məntiq səviyyələri modelinin nümunəsində araşdırılması

**Aktuallığı:** İnsan psixikasını dərk etməyin mürəkkəbliyi onun birbaşa öyrənilməsinin əlçatmaz olmasından ibarətdir. Bu mürəkkəblik insan psixologiyasına inteqrativ yanaşmaya uyğun psixi fəaliyyətin struktur modellərinin işlənib hazırlanmasını zəruri etmişdir. Sistemli-struktur (inteqrativ) yanaşma mövcud nəzəriyyənin predmetinə onun bütün keyfiyyətlərinin vəhdətində tədqiq olunmasına imkan verən müasir ümumelmi metoddur. Bu yanaşma fəlsəfi metodologiya ilə ayrı-ayrı konkret elmlərin spesifik metodları arasında halqa kimi çıxış edir. Onun aləti modelləşdirmə metodudur (Afanasyev, 1980). V.N.Panferov struktur modelin əsas funksiyasını vurğulayaraq yazmışdır ki: “Struktur model psixikanın ideal mahiyyətini onun maddi təzahürləri ilə əlaqələndirərək və qnoseoloji funksiyanı yerinə yetirərək insanın psixi potensialının bütöv şəkildə yenidən qurulması problemini həll edir”.

**Məqsədi:** R.Diltsin məntiqi səviyyələr modeli nümunəsində modelləşdirmə metodunu şəxsiyyət psixologiyasında sistemli-struktur

| | |
|---|---|
| | yanaşmanın əsas vasitəsi kimi təhlil etmək.<br><br>**Alınmış nəticələr:** antik dövrdən bu günə qədər insan varlığının çoxölçülü, inteqrativ modelinin qurulması vəzifəsinin həyata keçirilməsi tədqiq edilmişdir. İnsan varlığının modelləşdirilməsinin Kabbala, qədim Çin, Hindistan və digər fəlsəfi məktəblərdən V.N.Panferov və R.Diltsin müasir inteqrativ modellərinə qədər təkamülü nəzərdən keçirilmişdir. Şəxsiyyət psixologiyasında Sistemli-struktur yanaşmanın əsas vasitəsi kimi modelləşdirmə metodunun təhlili verilmişdir. Müəyyən edilmişdir ki, şəxsiyyət strukturunun qurulması kontekstində onun ən qiymətli keyfiyyəti inteqrativlikdir.<br><br>**Elmi tədqiqat işi 9.** Azərbaycan ədəbiyyatında milli-etnik xarakter və psixologizm<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:**Müəllim Elşən Sadıqov<br>**II mərhələ:** Azərbaycan ədəbiyyatınıda öz əksini tapmış psixoloji ideyaların təhlil edilməsi<br>**Aktuallığı:** Tarixi inkişafın müxtəlif dövrlərində mövcud olmuş yazılı abididələrdə, görkəmli mütəfəkkirlərimizin əsərlərində, mənəvi-əxlaqi dəyərlərinə geniş yer verilmiş və bunun nəticəsində gənclərdə mənəvi-əxlaqi, təlim tərbiyə işi üçün böyük əhəmiyyət kəsb etmişdir.<br>**Məqsədi:** Bədii ədəbiyyatda əks olunmuş etnik-psixoloji problemlərin və etnik xarakterin xüsusiyyətlərinin müəyyənləşdirilməsi<br>**Alınmış nəticələr:** Tədqiqat işi Azərbaycan ədəbiyyatında Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Mirzə Fətəli Axundov və s. əsərlərində müxtəlif etnik-psixoloji problemlər diqqətə çatdırılmış, bədii personajlar vasitəsilə milli-etnik psixoloji problemlər araşdırılmışdır. Bundan əlavə bu gün də aktuallığını itirməyən müxtəlif şəxsiyyət tipləri bir çox bədii ədəbiyyat nümunələrində təsvir olunmuşdur. |
| **2** | **Hesabat dövründə alınmış ən mühüm elmi nəticələr**<br>*Ən mühüm nəticələr səlis və konkret yazılmalıdır* |
| | 1. **Tədqiqatın mövzusu:** Pandemiyanın Azərbaycanda əhalinin emosional vəziyyətinə təsirinin psixoloji səciyyəsi<br><br>**Alınmış elmi nəticə haqqında qısa məlumat** Pandemiya zamanı Azərbaycanda əhalinin emosional vəziyyətinin, Covid-19 virusunun yayılmasının ölkə əhalisinə psixoloji təsirinin araşdırılmasına həsr olunmuş tədqiqatda 600 respondent iştirak etmiş və anketlər SPSS-20 proqramı vasitəsilə təhlil olunmuşdur. 21 əlamət vasitəsilə ifadə olunmuş “emosional vəziyyət” dəyişəni ilə yaş, cins, kiminlə yaşamaq, məşğulluq, risk qrupuna aidlik və koronavirusun təhlükəlilik dərəcəsi dəyişənləri arasında əlaqənin yoxlanılması göstərdi ki, narahatlıqla yaş qrupları arasında ciddi əlaqə var. Tənha olan respondentlərdə emosional durum, yəni, narahatlıq, təşviş və s. daha yüksək səviyyədədir, lakin nuklear ailələrdə, valideyn və uşaqlarla yanaşı nənə-babaların da olduğu böyük ailələrdə emosional vəziyyətinin səviyyəsi daha aşağıdır. Risk qrupuna aidlik nə qədər yüksəkdirsə, emosional vəziyyətdə |

narahatlıq da bir o qədər yüksəkdir. Eyni zamanda emosional vəziyyətdə daha çox narahat olmaqla təhlükəsizlik tədbirləri və özünə təcrid prinsipinə riayət arasında ciddi və birbaşa əlaqə mövcuddur. Respondentlərin “özü, ailəsi və ya tanıdığı şəxslər arasında Covid19-a yoluxan, dünyasını dəyişən və ya sağalan şəxslər” olan respondentlərdə pozitiv emosiyalar zəif oldu. Nəticələrin təhlili göstərdi ki, həyatın müxtəlif sahələrindən razılıq ilə təhsil səviyyəsi və məşğulluq vəziyyəti arasında da ciddi birbaşa əlaqə vardır. Belə ki, təhsil səviyyəsi yüksək olan insanlarda razılıq da yüksəkdir. Eyni zamanda məşğul və sabit gəliri olan respondentlər həyatdan daha razıdırlar.
**Alınmış elmi nəticə:** Elnara Shafiyeva,Sakhavat Aliyeva, Kamila Kazimova, Yamen Valiyeva, Nigar Nasirova, Terane Babayeva. Psychological nature of the impact of pandemic on the emotional state of the Population in Azerbaijan //Universidad&Sociedad Revista Científica de la Universidad de Cienfuegos. İSSN: 2218-3620
https://drive.google.com/file/d/1nsc29t5y6RBU0X6ckyMoQbFp4gtWZczx/view?usp=sharing

2. **Tədqiqatın mövzusu:** Əcnəbi tələbələrin təhsil aldıqları müddətdə yaşadıqları ölkənin onların psixi sağlamlığına təsiri

**Alınmış elmi nəticə haqqında qısa məlumat** Məqalədə azərbaycanda təhsil alan çinli və türk tələbələrin nümunəsində xarici tələbələrin təhsil aldıqları müddətdə yaşadıqları ölkənin onların psixi sağlamlığına təsiri məsələləri nəzərdən keçirilmiş, bununla bağlı aparılmış eksperimental-psixoloji tədqiqatın nəticələri şərh edilmişdir.
Müəyyən edilmişdir ki, yad mədəni mühitin subyektiv qavranılması əcnəbi tələbələrin psixi sağlamlığına əhəmiyyətli dərəcədə təsir göstərir.
Adaptasiya dövründə yaşayış yerini dəyişmiş tələbələrin öz ölkələrinin mədəniyyəti yeni sosio-mədəni mühitdən nə qədər çox fərqlənirsə, onların təhsil aldıqları ölkənin mədəniyyəti ilə öz ölkələrinin mədəniyyəti arasında subyektiv olaraq qəbul edilən məsafə bir o qədər çox olur və nəticə etibarilə fərdin psixi sağlamlığında müşahidə edilən müxtəlif xarakterli pozuntulara bir o qədər tez-tez təsadüf edilir.
Tədqiqatın nəticələrinin statistik təhlili nəticəsində bəlli olmuşdur ki, əcnəbi tələbələr yeni sosiomədəni mühitə adaptasiya prosesində sosial mühitdən daha çox asılı olur və onlarda həyəcan, aqressivlik, rigidlik, frustrasiya kimi psixoemosional simptomlar daha qabarıq təzahür edir. Bu isə əcnəbi tələbələrin mədəniyyətlərarası adaptasiya prosesində müəyyən maneə və çətinliklərin mövcudluğundan, eləcə də bu maneələrin aradan qaldırılması yollarının kifayət qədər inkişaf etdirilməməsindən xəbər verir.
**Alınmış elmi nəticə:** Elnara Shafiyeva, Sevinj Allahyarova, Aydan Samandarova, Tarana Babayeva, Sevinj Quliyeva. Influence of the country of residence of foreign students on their mental health during the period of study // Revista de Investigación Apuntes Universitarios. 2022: 12 (4), p. 379-395. ISSN: 2304-0335
https://doi.org/10.17162/au.v12i4.1252

| 3 | **Dərc olunmuş elmi işlərin xarakteristikası** |
|---|---|
| | **3.1. Mövzu üzrə Web of Science bazasına daxil olan Q1-Q4 kvartil reytinqinə düşən beynəlxalq jurnallarda çıxan məqalələr** *Müəlliflərin ad və soyadları, jurnalın adı tam şəkildə yazılmalı;Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli;mənbənin **internetdəki linki göstərilməlidir*** |

**Q1 üzrə:**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| **1.** | Ashabi G., AhmadianE. Shafiyeva E. | Covid-19 and psychological disorders: From molecular basis to social impacts and therapeutic interventions | Frontiers in Public Health, 19 August 2022, Sec. Public Mental Health, **Web of Science IMPACT FACTOR (2022: 6. 46)** | Çap olunub | https://doi.org/10.3389/fpubh.2022.1000614 |

**Q2 üzrə:**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| | | | | | |

**Q 3 üzrə**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|

**Q 4 üzrə**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| | *yazılmalı* | | | *və ya çapa göndə-rildiyi haqqında qeyd* | |

## Web of Science bazasına daxil olan Q1-Q4 kvartil reytinqinə düşməyən jurnallarda çıxan məqalələr

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| **1.** | Shafiyeva Elnara, Murotmusaev Komiljon Buribaevich,Yusupova Shoxruza Shamsiddin | DEVIANT BEHAVIOR: PSYCHOLOGICAL FACTORS OF STUDY | **FRONTLINE SOCIAL SCIENCES AND HISTORY JOURNAL , UK,**(ISSN – 2752-7018) VOLUME 02 ISSUE 03 , Pages: 32-38 , SJIF **IMPACT FACTOR (2021: 5. 376) (2022: 5. 561),** OCLC – 1276789625 METADATA IF – 7.569 | Çap olunub | Crossrefdoi: https://doi.org/10.37547/social-fsshj-02-03-04 |
| **2.** | Elnarə Şəfiyeva, Sevinc Allahyarova, Aydan Səməndərova, Tərənə Babayeva, Sevinc Quliyeva | Influence of the country of residence of foreign students on their mental health during the period of study | Revista de Investigación Apuntes Universitarios. 2022: 12 (4), p. 379-395. ISSN: 2304-0335 | Çap olunub | https://doi.org/10.17162/au.v12i4.1252 |
